**QANUN № 07 (381), 2026, s. 160-169**

**Ramazanov Zəfər Akif oğlu,**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin doktorantı
E-mail: zafarramazanov8@gmail.com

**UOT 343.01**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9226**

# AMNİSTİYA AKTININ TƏTBİQ EDİLDİYİ ŞƏXSƏ MÜNASİBƏTDƏ CİNAYƏTLƏRİN MƏCMUSU ÜZRƏ QƏTİ CƏZANIN TƏYİNİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *cinayətlərin məcmusu, cəza, cəzanın təyin edilməsi, amnistiya, cinayət törətmiş şəxs.*

***Ключевые слова:*** *совокупность преступлений, наказание, назначение наказания, амнистия, лицо, совершившее преступление.*

***Keywords:*** *aggregation of crimes, punishment, sentencing, amnesty, a person who has committed a crime.*

Məlum olduğu kimi, amnistiyanın elan edilməsi məhkumlarda, habelə cinayət təqibinə məruz qalan şəxslərdə sağlam ictimai həyata qayıtmağa ümid oyadır, onların cəza çəkmədən islah olunmasında mühüm rol oynayır. Son dövrlərdə ölkəmizdə cəza-islah siyasətinin həyata keçirilməsində bu alətdən tez-tez istifadə olunur. Təsadüfi deyil ki, 2000-ci ildən bəri Azərbaycan Respublikası Milli Məclisinin müvafiq qərarları ilə 8 amnistiya aktı qəbul edilmiş, həmin amnistiya aktları on minlərlə şəxsə şamil olunmuşdur. Son dövrlər Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən amnistiyalar xüsusilə əhatə dairəsinin genişliyi ilə fərqlənir. Məsələn, "8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 05.11.2021-ci il tarixli qərarı 17 min 267 şəxsə şamil olunub. Bu qərar əhatə etdiyi şəxslərin sayına görə həmin ilə qədər qəbul edilmiş ən geniş amnistiya olub. Daha sonra "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsü irəli sürülərək qəbul edilmişdir. Proqnozlara görə bu amnistiya aktının təxminən 20 min nəfəri əhatə etməsi gözlənilirdi [8]. Bu isə əhatə etdiyi şəxslərin dairəsinə görə ən geniş amnistiya aktı olması deməkdir.

Amnistiya aktı özündə sosial və islah elementləri ilə yanaşı, hüquqi məsələləri də gündəmə gətirir. Son iki amnistiya aktı əvvəlki amnistiya aktlarından fərqli olaraq təkcə barəsində ittiham hökmü çıxarılmış məhkumlar barəsində deyil, həmçinin amnistiya aktının qəbul edildiyi tarixə qədər törədilmiş cinayət əməllərinə görə cinayət təqibinə məruz qalan şəxslər barəsində də tətbiq edildiyindən, tətbiq mexanizmləri və bundan irəli gələn mürəkkəb hüquqi problemlərlə zəngindir. Belə hüquqi vəziyyətlərdən biri də cinayətlərin məcmusu zamanı meydana çıxır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.1–66.5-ci maddələri cinayətlərin məcmusu üzrə qəti cəzanın təyin edilməsinin əsas qaydalarını müəyyən edir. CM-in 66.5-ci maddəsinə görə cinayət işi üzrə hökm çıxarıldıqdan sonra, məhkumun birinci iş üzrə hökm çıxarılmazdan əvvəl törədilmiş başqa cinayətdə də təqsirli ol-

duğu müəyyən olunarsa, ona eyni qaydalar üzrə cəza təyin edilir. Bu halda birinci hökmə əsasən çəkilən cəza qəti cəza müddətinə hesablanır.

“Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5 və 67-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 14 iyul 2022-ci il tarixli qərarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinin tələbinə görə, şəxsin hökmlə təyin edilmiş cəzanı çəkib qurtardıqdan sonra bu hökm çıxarılmazdan əvvəl törədilmiş başqa cinayətdə təqsirli olması müəyyən edildiyi halda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.1-66.4-cü maddələrinə uyğun olaraq cinayətlərin məcmusu üzrə cəza təyin edilməli və birinci hökmə əsasən çəkilmiş cəza qəti cəza müddətinə hesablanmalıdır.

Amnistiya aktlarının tətbiqinin mütəmadi xarakter alması, eləcə də həmin aktların tətbiq olunduğu şəxslərin dairəsinin çoxalması, həmçinin həmin aktlarla tətbiq edilən güzəştlərin çoxçeşidliliyi haqqında bəhs edəcəyimiz məsələni daha da aktuallaşdırır. Müzakirə ediləcək hüquqi məsələyə dair kazusun göstərilməsi qoyulmuş problemin mənimsənilməsi üçün faydalı ola bilər.

Məsələn, şəxs məhkəmənin 22.04.2025-ci il tarixli hökmü ilə CM-in 234.1-ci maddəsi ilə təqsirli bilinib 1 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Daha sonra hökmdən əvvəl (22.03.2025) törətdiyi oğurluq (CM-in 177.2.3-cü maddəsi) cinayət əməlinə görə məhkəməyə verilmişdir. Sonuncu iş üzrə məhkəmə 02.02.2026-cı il tarixdə yekun qərar qəbul edərkən müəyyən olunmuşdur ki, şəxsin məhkum olunduğu əvvəlki cinayət əməlinə (CM-in 234.1-ci maddəsi) görə amnistiya aktı tətbiq edilərək şəxs cəzasının çəkilməmiş 5 ay hissəsindən azad olunmuşdur. Bu zaman ittiham hökmü qəbul edərək cəza təyin etdiyi halda məhkəmədən CM-in 66.5-ci maddəsini tətbiq etmək tələb olunur. CM-in 66.5-ci maddəsinin tələbinə görə isə məhkəmə eyni qaydalar üzrə, yəni təyin edilmiş az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə və ya təyin edilmiş cəzaları tamamilə və ya qismən toplama yolu ilə qəti cəza təyin edir. Yəni, məhkəmə təyin edilmiş cəzaları əhatə etmək üsulundan istifadə etməzsə (bu üsul təcrübədə nadir hallarda tətbiq olunur) hazırkı (CM-in 177.2.3-cü maddəsi) cinayət əməlinə görə təyin edilmiş cəzanı əvvəlki – 22.04.2025-ci il tarixli hökmlə təyin edilmiş cəza ilə qismən və ya tamamilə toplama yolu ilə qəti cəza təyin etməlidir. Baxılan cinayət işində isə əvvəlki hökm üzrə təyin edilmiş cəzanın bir hissəsi çəkilmiş, digər hissəsi isə amnistiya aktı tətbiq edilərək şəxs cəza çəkməkdən azad edilmişdir.

Göstərilən kazus üzrə aşağıdakı suallar ortaya çıxır.

1) Məhkəmə əvvəlki hökm üzrə təyin edilmiş cəzanın hansı hissəsini hazırkı hökm üzrə təyin edilmiş cəza ilə toplamalıdır: bütövlükdə təyin edilmiş cəzanı, yoxsa təyin edilmiş cəzanın çəkilmiş hissəsini?

2) Birinci hökmə əsasən yalnız çəkilmiş cəza, yoxsa həm çəkilmiş cəza həm də amnistiya aktına əsasən cəzadan azad olunduğu hissə qəti cəza müddətinə hesablanmalıdır? CM-nin 69.3-cü maddəsinə əsasən təyin edilmiş cəzadan çıxılan ibtidai həbs müddətləri çəkilmiş cəza kimi nəzərə alınmalıdırmı?

3) Cəzaların tam və ya qismən toplanması üsulu əvəzinə əhatə etmək üsulundan istifadə edilməsi mübahisənin həlli yolu kimi qəbul edilə bilərmi?

Məhkəmə təcrübəsinə nəzər yetirdikdə göstərilən məsələ ilə bağlı vahid mövqeyin olmadığı müşahidə olunur. Belə ki, bəzi məhkəmələr təyin edilmiş cəzanı, bəzisi onun çəkilmiş hissəsini hazırda təyin edilmiş cəzaya toplayır, bəzisi isə ümumiyyətlə cəzanı toplamaqdan imtina edir.

Məsələn, Bakı şəhəri, Nizami Rayon Məhkəməsinin 09.04.2026-cı il tarixli, 1(007)-

279/2025 saylı hökmü ilə şəxs Azərbaycan Respublikası CM-nin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətməkdə təqsirli bilinib, barəsində 1(bir) il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, Azərbaycan Respublikası CM-nin 66.5-ci maddəsinə əsasən Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 14.11.2025-ci il tarixli, 1(007)-455/2025 saylı hökmü ilə təyin edilmiş 3 (üç) ay 12 (on iki) gün müddətinə azadlığın məhdudlaşdırılması cəzasının (barəsində amnistiya aktının tətbiq edilməsinə dair Bakı şəhər Probasiya İdarəsinin 16.01.2026-cı il tarixli qərarı nəzərə alınmaqla) 2 gününü azadlıqdan məhrum etmənin 1 gününə bərabər tutaraq hesablamaqla 1(bir) ay 21(iyirmi bir) gün müddətinə azadlıqdan məhrum etmə cəzasını hazırkı hökmlə təyin edilmiş cəza ilə tam toplayaraq 1(bir) il 1(bir) ay 21 (iyirmi bir) gün müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, şəxsin Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 14.11.2025-ci il tarixli, 1(007)-455/2025 saylı hökmü üzrə çəkdiyi 1 ay 21 gün azadlıqdan məhrum etmə cəzasını Azərbaycan Respublikası CM-nin 66.5-ci maddəsinə əsasən qəti cəza müddətinə hesablamaqla üzərində 1(bir) il müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılmış, Azərbaycan Respublikası CM-nin 69.3-cü maddəsinə əsasən şəxsin 2 gün həbsdə saxlanılması nəzərə alınmaqla həbsdə saxlamanın bir gününü azadlıqdan məhrum etmənin bir gününə hesablayaraq üzərində 11(on bir) ay 28 (iyirmi səkkiz) gün müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır.

Göründüyü kimi, məhkəmə əvvəlki iş üzrə cəzanın faktiki olaraq çəkildiyi müddəti təyin edilmiş cəza ilə tam toplayaraq sonradan qəti cəzadan çıxsa da, CM-in 69.3-cü maddəsi ilə şəxsin əvvəlki hökm üzrə tutulduğu 2 gün müddəti nə toplama zamanı nəzərə almış, nə də çəkilmiş cəza kimi yekun cəzadan çıxmamışdır [2].

Bakı şəhəri, Binəqədi Rayon Məhkəməsinin 14.05.2026-cı il tarixli, 1(001)-462/2025 saylı hökmü ilə şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.1, 177.2.2, 177.2.3 və 234.1-ci maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinmiş və ona Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.1, 177.2.2, 177.2.3-cü maddələri ilə 2 (iki) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzası, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə 1 (bir) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.2-ci maddəsinə əsasən şəxsə təyin olunmuş cəzaları qismən toplamaq yolu ilə ona qəti olaraq, 3 (üç) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinə şəxsin Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 03.11.2025-ci il tarixli, hökmü ilə məhkum olunduğu azadlıqdan məhrum etmə cəzası (Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 10.03.2026-cı il tarixli, nömrəli qərarına əsasən cəzasının çəkilməmiş hissəsinin azaldılması nəzərə alınmaqla) hazırkı hökmlə təyin edilmiş 3 (üç) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına qismən toplamaq yolu ilə şəxsə qəti olaraq 4 (dörd) il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 69.3-cü maddəsinə əsasən A.N.T. oğlunun Bakı şəhəri Səbail Rayon Məhkəməsində baxılmış 1(009)-192/2025 nömrəli cinayət işi üzrə 24.02.2025-ci il tarixdən 26.02.2025-ci il tarixədək və 03.06.2025-ci il tarixində şübhəli və təqsirləndirilən şəxs qismində tutulduğu 3 (üç) gün, habelə hazırkı cinayət işi üzrə 11.04.2025-ci il tarixdən 13.04.2025-ci il tarixədək şübhəli və təqsirləndirilən şəxs qismində tutulduğu 2 (iki) gün, cəmi 5 (beş) gün müddət, həbsdə saxlamanın bir günü azadlıqdan məhrum etmənin bir gününə bərabər hesablanmaqla, ona təyin edilmiş azadlıqdan məhrum etmə cəzasından çıxılaraq, üzərində qəti olaraq 3 (üç) il 11 (on bir) ay

25 (iyirmi beş) gün müddətə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır [3].

Bu işdə isə məhkəmə əvvəlki işdə təyin edilmiş cəzanı amnistiya aktı nəzərə alınmaqla təyin etdiyi cəzaya toplasa da, (toplanılan cəzanın həddi müəyyən deyil) CM-in 69.3-cü maddəsinə əsasən şəxsin hər iki iş üzrə ibtidai həbs müddətlərini təyin edilmiş cəzadan çıxmışdır.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 11.02.2026-cı il tarixli, 1(006)-195/2025 saylı hökmü ilə təqsirləndirilən şəxs Azərbaycan Respublikası CM-nin 177.2.2 və 177.2.3-1-ci maddələri ilə nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinərək 2 (iki) il 6 (altı) ay müddətinə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinə əsasən Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 1(006)-585/2025 saylı, 26.09.2025-ci il tarixli hökmü ilə təyin edilmiş 2 (iki) il müddətinə azadlığın məhdudlaşdırılması cəzası hazırkı hökmlə təyin olunan cəza ilə qismən toplanılmaqla ona qəti olaraq 2 (iki) il 8 (səkkiz) ay müddətinə azadlığın məhdudlaşdırılması cəzası təyin edilmiş, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 1(006)-585/2025 saylı, 26.09.2025-ci il tarixli hökmü ilə təyin edilmiş 02 il müddətinə azadlığın məhdudlaşdırılması cəzasının çəkilmiş 1 (bir) ay müddəti qəti cəza müddətinə hesablanmaqla hazırkı hökmlə təyin edilmiş qəti cəzadan çıxılaraq üzərində 2 (iki) il 7 (yeddi) ay müddətinə azadlığın məhdudlaşdırılması cəzası saxlanılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 69.3-cü maddəsinə əsasən hazırkı cinayət işi üzrə ibtidai istintaq zamanı şübhəli şəxs qismində tutulduğu, həbs və ev dustaqlığında saxlanıldığı və məhkəmə istintaqı dövründə həbsdə saxlanıldığı ümumilikdə 7 (yeddi) ay 1 (bir) gün və Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 1(006)-585/2025 saylı, 26.09.2025-ci il tarixli hökmü ilə ibtidai istintaq zamanı tutulduğu ümumilikdə 2 (iki) gün müddət Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.1.1-1-ci maddəsinə əsasən 1 (bir) il 2 (iki) ay 6 (altı) gün müddətinə azadlığın məhdudlaşdırılması cəzasına bərabər tutulmuş və ona təyin edilmiş 2 (iki) il 7 (yeddi) ay müddətinə azadlığın məhdudlaşdırılması cəzasından çıxılmış, üzərində 01 (bir) il 4 (dörd) ay 24 (iyirmi dörd) gün müddətinə azadlığın məhdudlaşdırılması cəzası saxlanılmışdır.

Göründüyü kimi, bu hökmə əvvəlki hökmlə təyin edilmiş cəza qismən toplanılma yolu ilə toplanılsa da sonradan yalnız əvvəlki hökmün çəkilmiş hissəsi, həmçinin CM-in 69.3-cü maddəsi ilə hər iki cinayət işi üzrə tutulma və həbsdə saxlanılma müddətləri qəti cəzadan çıxılmışdır [4].

Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 11.03.2026-cı il tarixli, 1(007)-394/2025 saylı hökmü ilə təqsirləndirilən şəxs Azərbaycan Respublikası CM-nin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətməkdə təqsirli bilinib, barəsində 6 (altı) ay müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, Azərbaycan Respublikası CM-nin 69.3-cü maddəsinə əsasən təqsirləndirilən şəxsin 2 gün həbsdə saxlanılması nəzərə alınmaqla həbsdə saxlamanın bir gününü azadlıqdan məhrum etmənin bir gününə hesablayaraq üzərində 5 (beş) ay 28 (iyirmi səkkiz) gün müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır. Hökmə əsasən təqsirləndirilən şəxs Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 29.04.2025-ci il tarixli, 1(007)-275/2025 saylı hökmü ilə təyin edilmiş 2 il 5 ay 26 gün müddətinə azadlığın məhdudlaşdırılması cəzasından Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının 2.6-cı bəndinə əsasən azad olunduğundan məhkəmənin mövqeyinə əsasən təqsirləndirilən şəxsin hazırda icraatda olan cinayət işi üzrə Azərbaycan Respublikası CM-nin 234.1-ci maddəsi ilə təqsirli bilindiyi əməli Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 29.04.2025-ci il tarixli, 1(007)-275/2025 hök-

mü ilə məhkum olunana qədər törətsə də, həmin hökmlə təyin edilmiş cəzadan azad olunduğu üçün ona Azərbaycan Respublikası CM-nin 66.5-ci maddəsində göstərilən qaydalar üzrə cəza təyin edilməməlidir [5].

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 09.04.2026-cı il tarixli, 1(006)-793/2025 saylı hökmü ilə təqsirləndirilən şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.1-ci maddəsi ilə təqsirli bilinərək 03 (üç) il müddətinə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, təqsirləndirilən şəxs Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 02.10.2025-ci il tarixli hökmü ilə təyin edilmiş 02 il 03 ay müddətinə azadlığın məhdudlaşdırılması cəzası hazırkı hökmlə təyin edilmiş cəza ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinə əsasən az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə toplanmaqla, ona qəti olaraq 03 (üç) il müddətinə azadlığın məhdudlaşdırılması cəzası təyin edilmişdir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 69.3-cü maddəsinə əsasən təqsirləndirilən şəxs əvvəlki cinayət işi üzrə tutulduğu 02 gün və hazırkı cinayət işi üzrə 08.10.2025-ci il tarixdən 10.10.2025-ci il tarixədək tutulduğu 02 gün, cəmi 04 gün müddət 08 gün azadlığın məhdudlaşdırılması cəzasına bərabər tutularaq 08 gün müddət və əvvəlki hökm üzrə təyin olunmuş azadlığın məhdudlaşdırılması cəzasından çəkdiyi 01 ay 08 gün müddət, cəmi 01 ay 16 gün müddət ona təyin olunmuş cəzadan çıxılmış və onun üzərində qəti olaraq 02 il 10 ay 14 gün müddətinə azadlığın məhdudlaşdırılması cəzası saxlanılmışdır.

Bu iş üzrə məhkəmə əvvəlki iş üzrə təyin edilmiş cəzanı hazırkı hökmdə nəzərə alaraq (daha ciddi cəza ilə əhatə etməklə) əvvəlki iş üzrə çəkilmiş cəzanı və CM-in 69.3-cü maddəsinə əsasən həbsdə saxlandığı müddətləri qəti cəzadan çıxmışdır [6].

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 11.03.2026-cı il tarixli, 1(010)-522/2025 saylı hökmü ilə təqsirləndirilən şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinib, barəsində bir il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, onun Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 1(010)- 242/2025 nömrəli, 11.03.2025-ci il tarixli hökmü ilə təyin edilən 03 (üç) il müddətə azadlığın məhdudlaşdırılması cəzası üzrə "Konstitusiya və Suverenlik ili" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19.12.2025-ci il tarixli Qərarının 2.6-cı bəndinə əsasən cəzadan azad edilməsi nəzərə alınaraq, cinayətlərin məcmusu qaydasında cəza təyin edilməmişdir. Azərbaycan Respublikası CM-nin 69.3-cü maddəsinə əsasən hazırkı iş üzrə 30.05.2025-ci il tarixdən 01.06.2025-ci il tarixədək tutulub saxlanıldığı 02 (iki) gün müddət azadlıqdan məhrumetmə növündə cəzanın müddətinə bir günə bir gün hesabı ilə hesablanmaqla ona təyin olunmuş 01 (bir) il müddətə azadlıqdan məhrumetmə cəzasından çıxılmış və təqsirləndirilən şəxsin üzərində qəti olaraq 11 (on bir) ay 28 (iyirmi səkkiz) gün müddətə azadlıqdan məhrumetmə cəzası saxlanılmışdır [7].

Göründüyü kimi, bu hökmdə də məhkəmə CM-in 66.5-ci maddəsini tətbiq etməkdən ümumiyyətlə imtina etmişdir. Ümumiyyətlə, məhkəmələr qeyd edilən məsələyə müxtəlif mövqelərdən yanaşmış və yuxarı instansiya məhkəmələri tərəfindən vahid mövqe formalaşmamışdır. Diqqəti cəlb edən məsələ həm də ondan ibarətdir ki, məhkəmələr qeyd olunan halla bağlı yekun nəticəyə gəlsələr də, qərarlarda bu nəticəni əsaslandırmamışlar.

Zənnimizcə, məsələnin mahiyyəti üzrə həll edilməsi üçün cinayət qanunvericiliyinin cəzaların təyin edilməsi və toplanması ilə bağlı müəyyən etdiyi qaydalar, qəti cəza anlayışı, habelə xarici ölkələrin hüquq sistemində çəkilmiş cəzanın nəzərə alınmasına münasibət və

mövcud məhkəmə təcrübəsi ümumilikdə nəzərə alınmalıdır.

Qeyd olunan məsələyə ümumi nəzər salındıqda Azərbaycanın da daxil olduğu Avropa hüquq ailəsində araşdırdığımız problemə dair ümumi prinsiplər tapmaq mümkündür. Hesab edirəm ki, həmin qayda və prinsiplərə nəzər salınması məsələsinin həlli üçün faydalı ola bilər.

Belə ki, roman-german hüquq sisteminə aid Avropa ölkələrində cəzaların təyin edilməsi, toplanılması və qəti cəzanın müəyyən edilməsi qaydalarının iki forması nəzərə çarpır: alman və fransız modeli.

Alman modeli bir neçə cinayətdə təqsirli bilinən şəxsə, əsasən, bir növ qəti cəzanın təyin edilməsinə üstünlük verir. Almaniya Cinayət Məcəlləsinin 53-cü bölməsinə görə, şəxs bir neçə cinayətə görə mühakimə olunursa şəxsə təyin edilmiş azadlıqdan məhrum etmə və cərimə cəzaları əhatə olunaraq (toplanaraq) qəti cəza təyin olunmalıdır. Məhkəmə azadlıqdan məhrum etmə və cərimə cəzalarını əhatə edərsə (toplayarsa) cərimə cəzası ayrılıqda təyin oluna bilər. Göründüyü kimi, qəti cəza anlayışı bu Məcəllədə əsas yer tutur [9].

Fransız modelinə görə isə bir neçə cinayətə görə təyin edilən cəzaların toplanılması və vahid cəza təyin edilməsi ideyası olsa da qəti cəzanın təyin edilməsi ümumilikdə məhkəmənin mülahizəsinə bağlı olaraq qalır.

Əgər toplama tələbi məcburi xarakter daşımırsa, bu zaman cəzaların müstəqil icra edilməsi tələbi mövcud olur. Fransız Cəza Məcəlləsində cəzaların concurrent (eyni anda, paralel) və ya consecutive (ardıcıl) icra qaydaları mövcuddur. Bu zaman cəzaların hər hansı birinə münasibətdə sonradan baş verən azalma və ya azad etmə məhz həmin cəzaya münasibətdə də nəzərə alınır. Fransız CM-nin 132-6-cı maddəsi bu məsələdə daha dəqiq hüquqi tənzimləmə verir. Həmin müddəaya görə əgər əfv və ya amnistiya nəticəsində cəza dəyişdirilmiş və ya azaldılmışdırsa qəti cəza təyin edilərkən dəyişdirilmiş və ya azaldılmış cəza nəzərə alınır. Amnistiya qəti cəza müəyyən olunduqdan sonra verilərsə bu zaman o, qəti cəzada nəzərə alınır. Əgər əvvəlki cəza qəti cəza müəyyən olunduqdan sonra azaldılarsa, azalma qalan yekun müddətdən çıxılır [10].

Fransız modelindən fərqli olaraq ölkəmizdə tətbiq olunan cəzaların təyin olunması sistemi alman modelinə daha uyğundur. Belə ki, bu sistemdə təyin olunmuş cəzaların ayrı-ayrılıqda icrası müstəsna hallarda mümkündür. Bir qayda olaraq, cəzalar toplanılır və ya birləşdirilir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində olduğu kimi Almaniya Cinayət Məcəlləsinin 53 və 54-cü maddələri cinayətlərin məcmusu və qəti cəzanın müəyyən edilməsi məsələlərinə həsr olunub. Həmin maddələrin məzmununa görə məhkəmə hər bir halda şəxsə qəti cəza təyin etməlidir. Bu hissədə alman qanunvericiliyi ilə milli qanunvericiliyimiz əsasən eyni prinsiplərdən çıxış edir: şəxsin islah olunmasına vahid cəzanın tətbiq olunması ilə nail olmaq. Azərbaycan Respublikası CM-nin 66.5-ci maddəsinə görə şəxs hökmdən əvvəl törətdiyi cinayətə görə mühakimə olunursa bu zaman yenə də cinayətlərin məcmusu qaydasında qəti cəza təyin olunur. Çünki nəzəri baxımdan qanunvericilik hesab edir ki, barəsində ittiham hökmü çıxarılmış şəxs ilə barəsində qanuni qüvvəyə minmiş ittiham hökmü olmayan şəxslər arasında cəzanın təyin edilməsinə fərqli prinsiplər əsasında yanaşılmalıdır. Eyni prinsiplər Almaniya CM-də də gözlənilir. Həmin Məcəllənin 55-ci maddəsinə görə hökmdən əvvəlki cinayət əməlinə görə cəza cinayətlərin məcmusu qaydasında təyin olunur. Lakin bundan 3 istisna mövcuddur: 1) cəza çəkilib qurtarıbsa 2) cəza bağışlanıbsa 3) həmin cəza üçün hökmün icrası müddəti keçibsə [9].

Yuxarıda təqdim olunan nümunələrdən görünür ki, həm alman, həm də fransız qanunvericiliyi bu gün Azərbaycan məhkəmələrində geniş müzakirə olunan problemə dair hüquqi tən-

zimlənmə nəzərdə tutmuşdur. Lakin cinayət qanunvericiliyimizdə, eləcə də həmin qanunvericiliyin tətbiqi təcrübəsinə dair Ali Məhkəmənin Plenum qərarlarında göstərilən problemə dair izah verilməmişdir. Bununla belə, cinayət qanunvericiliyinin ümumi prinsipləri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin formalaşdırdığı hüquqi mövqelər, Ali Məhkəmənin Plenum Qərarında vermiş olduğu izahlar nəzərə alınmaqla qeyd edilən problemə dair müəyyən nəticəyə gəlmək mümkündür.

Yuxarıda göstərilən kazusa uyğun olaraq CM-in 66.5-ci maddəsi ilə cinayətlərin məcmusu üzrə toplamanın aparılması və qəti cəza təyin edilməsinin ümumi qaydasının müəyyən edilməsindən ötrü birinci hökmə əsasən təyin edilmiş və toplanılacaq cəzanın ikinci hökm qəbul edilərkən mümkün ola biləcək hallar bütünlükdə nəzərdən keçirilməlidir. Fikrimcə, bu toplanılacaq cəzanın hüquqi mahiyyətini anlamaqda yardımçı ola bilər. CM-in 66.5-ci maddəsi ilə toplanılacaq cəzaya dair aşağıdakı vəziyyətlərlə qarşılaşmaq mümkündür:

- cəza çəkilmiş ola bilər;
- amnistiya aktının təsirinə düşə bilər.

Bu halda: a) şəxsin cəzası azaldıla bilər; b) şəxs cəzadan azad oluna bilər; c) şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər; d) şəxs əlavə cəzadan azad edilə bilər; e) cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər;

Əfv edilə bilər: a) cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər; b) ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər; c) şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər; d) şəxsin məhkumluğu götürülə bilər;

CM-in 66.5-ci maddəsinə əsasən aşağıdakılar cəza təyin olunarkən qarşılaşa biləcəyimiz hallar kimi qeyd oluna bilər: 1) şəxs cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilər; 2) şəxsin cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza ilə əvəz edilə bilər; 3) şəxs cəzanın icrasından qərəzli olaraq boyun qaçırdıqda cəza ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər; 4) şəxs xəstəliyə görə cəza çəkməkdən azad edilə bilər; 5) şəxsin cəzasının çəkilməsi təxirə salına bilər; 6) hökmün icra müddəti ilə əlaqədar şəxs cəza çəkməkdən azad edilə bilər; 7) zərərçəkmiş şəxs ilə barışmaqla və ziyanı ödəməklə cəzadan azad edilə bilər; 8) şəxsin cinayət əməllərindən birinin dekriminallaşması ilə cəza azala bilər və ya cəzadan azad oluna bilər.

Yuxarıda göstərilən halların hər biri CM-in 66.5-ci maddəsinə əsasən cəza təyin olunarkən qarşılaşa biləcəyimiz hallardır. Hazırda müzakirəyə səbəb olan hal 1-ci hökmlə təyin edilmiş cəzanın amnistiya aktına əsasən azaldılması və yaxud şəxsin cəzadan azad olunması ilə bağlıdır. Bu situasiya üçün qanunvericiliyin normalarının izahı verilərkən sonradan başqa problemlərlə rastlaşmamaq üçün yuxarıda göstərilən bütün mümkün hallar nəzərə alınmalıdır.

Mübahisənin həlli üçün cinayət qanununun əlaqədar normalarında nəzərdə tutulmuş üç suala cavab verilməsi vacib əhəmiyyət kəsb edir: CM-in 66.1-ci maddəsində "təyin edilmiş" cəza dedikdə, hansı cəza nəzərdə tutulur? CM-in 66.5-ci maddəsinin ikinci cümləsində "çəkilən cəza", həmçinin Konstitusiya Məhkəməsinin 14 iyul 2022-ci il tarixli qərarına əsasən "çəkilmiş cəza" dedikdə, hansı cəza nəzərdə tutulur?

Konstitusiya Məhkəməsinin 14 iyul 2022-ci il tarixli qərarı hansı cəzanın qəti cəzaya toplanılmalı olmasını müəyyən edir.

Cəza məhkəmənin hökmü ilə təyin edilir və sonrakı mərhələlərdə icra olunana qədər məhkəmənin qərarı ilə müxtəlif formalarda dəyişikliyə məruz qala bilər (cəzadan şərti olaraq vaxtında əvvəl azad oluna bilər, cəza daha ağır cəza ilə əvəz oluna bilər, təxirə salına bilər və s.). Bu halların heç də hamısında məhkəmənin hökmü ilə təyin edilmiş cəzanı qəti cəzaya toplamaq, daha

sonra məhkəmənin qərarı ilə həmin cəza ilə bağlı baş vermiş dəyişiklikləri nəzərə almaq mümkün deyil. Məsələn, amnistiya aktına əsasən azad edilmiş cəzanın sonradan CM-in 66.5-ci maddəsi ilə müəyyən edilmiş qaydada qəti cəzaya toplanılması, əfv olunmuş cəzanın toplanılması, yaxud təxirə salınmış cəzanın toplanılması və s. Digər tərəfdən, yalnız hökm üzrə təyin edilmiş cəzanı toplamaq, eyni zamanda həmin cəzaya münasibətdə sonrakı məhkəmə qərarlarının hüquqi nəticələrini nəzərə almamaq qüvvədə olan məhkəmə qərarlarını əhəmiyyətsiz etməklə yanaşı bəzi hallarda məhkumun ziyanına da nəticələnə bilər (məsələn, icra qaydasında cəza daha yüngül cəza ilə əvəz olunubsa, yaxud cəzadan şərti olaraq vaxtından əvvəl azad olunubsa).

Nəzərə almaq vacibdir ki, həm cəzanı ilkin olaraq təyin edən, həm də sonradan həmin cəzaya dair icra qaydasında qərar verən məhkəmələrin statusu eynidir. Bütün qərarlar dövlətin adından çıxarılır. Sonrakı məhkəmə qərarları cari vəziyyətə uyğun olaraq təyin edilmiş cəzaya dəyişikliklər etməklə hüquqi baxımdan əhəmiyyətli olan yeni bir vəziyyət yaradır. Məsələn, şəxs cəzasının bir hissəsindən şərti olaraq vaxtından əvvəl azad olunur, yaxud cəzası yüngül və ya ağır cəza ilə əvəz edilir. Odur ki, toplama sonrakı məhkəmə qərarları nəzərə alınmaqla aparılmalı, həmin məhkəmə qərarlarının hüquqi əhəmiyyəti saxlanılmalıdır. Məsələn, cəza daha yüngül və ya ağır cəza ilə əvəz edilibsə toplamaya sonuncu cəza daxil edilməlidir. Əgər şəxsin cəzası amnistiya aktına əsasən azaldılıbsa toplamaya cəzanın azaldıldıqdan sonra qalmış hissəsi daxil edilməlidir. Başqa bir misalda, əgər şəxs cəzanın bir hissəsi çəkildikdən sonra qalan hissəsindən azad edilibsə toplamaya cəzadan azad edilmiş hissəsi daxil edilməməlidir. Əks təqdirdə cəzadan azad edilmiş hissənin sonradan yenidən qəti cəzaya toplanılması onu yenidən hüquqi əhəmiyyətli cəza vəziyyətinə gətirməklə əvvəlki qərarla mühüm ziddiyyətə yol verilmiş olardı. Bu halda həm də nəzərə almaq lazımdır ki, cəzadan azad edilmiş hissənin də toplanılması yolu ilə alınmış qəti cəzanın həddi süni surətdə ağırlaşdırılmış olacaq, təyin edilmiş qəti cəzanın yuxarı həddi isə gələcəkdə şəxsin barəsində baş verə biləcək mümkün yaxşılaşdırmaları da əngəlləyə bilər (məsələn, hipotetik olaraq, gələcəkdə amnistiyanın tətbiqi qəti cəzanın həddi ilə əlaqələndirilərsə). Çünki yuxarıda qeyd etdiyimiz kimi, qanunvericiliyimiz qəti cəza anlayışını kifayət qədər ciddi hüquqi kateqoriya kimi qəbul edərək, bəzi halları qəti cəzanın həddindən asılı etmişdir. Məsələn, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə 5 ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər üçün cəzanın ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkilməsinin müəyyən edilməsi. Deməli, CM-in 66.1-ci maddəsində nəzərdə tutulmuş "təyin edilmiş" cəza anlayışı hökmlə təyin olunmuş və sonradan qərarla dəyişikliyə məruz qalaraq alınmış cəzanı nəzərdə tutur.

Məsələyə başqa tərəfdən yanaşdıqda aşkar olunur ki, yuxarıda sadalanan vəziyyətlər cəzanın çəkilməsi baxımından iki qrupa bölünür: 1) cəzanın çəkilməsi; 2) cəzanın başqa cür sonlanması (təxirə salınması, şərti olaraq vaxtından əvvəl azad edilməsi). Başqa sözlə, "çəkilmiş cəza" anlayışı heç də yuxarıda sadalanmış digər vəziyyətlərdə olan cəza anlayışı ilə eyni məzmunlu deyildir. Məsələn, cəzanın şərti olaraq vaxtından əvvəl azad edilmiş hissəsi və yaxud amnistiya aktına əsasən azaldılmış və ya azad olunmuş hissəsi "çəkilmiş cəza" hesab oluna bilməz. "Çəkilmiş cəza" anlayışı mahiyyət etibarilə CM-in 69-cu maddəsində nəzərdə tutulan cəzaların hesablanması və hesaba alınması halları ilə yaxın olan hüquqi kateqoriyadır. Çünki CM-in 69-cu maddəsinə əsasən çıxılan cəza hər bir halda çəkilmiş cəzadır.

Diqqətə alınması vacibdir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5 və 67-

ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun i 14 iyul 2022-ci il tarixli qərarı yalnız çəkilmiş cəzaya münasibətdə şərh vermişdir. Həmin şərhin predmetini təşkil edən iş üzrə təyin edilmiş cəza tam olaraq çəkilmişdir. Qərarda qeyd olunur: "... nəzərə alınmalıdır ki, əvvəlki hökmlə təyin edilmiş cəzanın çəkilib qurtarması halı həmin hökmün qüvvəyə minməsindən əvvəl törədilmiş cinayətə görə cinayətlərin məcmusu üzrə cəzanın təyin edilməsinin mümkünlüyünü istisna edən əsas kimi qəbul edilə bilməz. Belə ki, göstərilən halda Cinayət Məcəlləsinin 66.5-ci maddəsinə uyğun olaraq təqsirləndirilən şəxsə cinayətlərin məcmusu üzrə vahid cəza təyin edilməli və birinci hökmə əsasən çəkilən cəza isə qəti cəza müddətinə hesablanmalı, yəni çəkilmiş cəza cinayətlərin məcmusu qaydasında təyin olunan vahid cəzadan çıxılmalıdır."

Bəzən hüquqtətbiqetmə təcrübəsində CM-in 66.5-ci maddəsinin formal və texniki olaraq tətbiq edilməsi və CM-in 66.1-ci maddəsində nəzərdə tutulmuş təyin edilmiş cəzaları toplamaq qaydasına mütləq surətdə əməl edilməsi təcrübəsini formalaşdırmağa cəhdlər edilir. Lakin nəzərə almaq vacibdir ki, məhkəmə təcrübəmizdə həmin müddəanın mahiyyəti üzrə tətbiqi təcrübəsinə dair nümunələr mövcuddur. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 25 iyun 2003-cü il tarixli Qərarın 27-ci bəndinə görə şərti məhkum edilmiş şəxsin birinci iş üzrə hökm çıxarılanadək başqa cinayət törədilməsində də təqsirli olması müəyyən edilərsə bu halda cəzalar toplanmır. Belə ki, həmin qərara görə "şərti məhkum edilmiş şəxsin birinci iş üzrə hökm çıxarılanadək başqa cinayət törədilməsində də təqsirli olması müəyyən edilərsə bu halda CM-in 65-ci maddəsində nəzərdə tutulmuş qaydalar tətbiq edilmir, belə ki, CM-in 71-ci maddəsində şərti məhkumetmənin ləğv edilməsi əsaslarının tam siyahısı verilmişdir. Belə hallarda birinci və ikinci işlər üzrə hökmlər müstəqil icra olunur" [1].

Fikirlərimizi ümumiləşdirərək yuxarıda göstərilənlərdən aşağıdakı nəticələrə gəlmək olar. CM-in 66.1-ci maddəsində nəzərdə tutulmuş "təyin olunmuş cəza" anlayışı CM-in 66.5-ci maddəsinin tətbiqi baxımından heç də həmişə ilkin hökmlə təyin edilmiş cəzanı nəzərdə tutmur. Həmin cəza sonrakı məhkəmə qərarları ilə müxtəlif formalarda azaldıldıqda və ya dəyişdirildikdə öz əhəmiyyətini saxlamaqla toplanılma aparılmalıdır. Təyin edilmiş cəzanın bir hissəsi çəkildikdə, digər hissəsi isə azaldıqda və ya başqa cəza ilə əvəz edildikdə cəzanın çəkilmiş hissəsi cəzanın digər hissələrindən ayrıla və toplamaya məruz qala bilər. Şəxsin cəzadan hər hansı formada azad edilməsi və ya cəzanın azaldılması ilə nəticələnən hissəsi qəti cəzaya ilə nə toplanıla, nə də sonradan qəti cəzadan çıxıla bilər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" Qərarı / https://e-qanun.az/framework/16741
2. Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalı: https://courts.gov.az/3aa8afab-5b98-48e7-af07-a672a652b0b3
3. Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalı: https://courts.gov.az/d09fb1be-9f34-4691-8a54-3d3f1c6f4567
4. Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalı: https://courts.gov.az/ca4de5e8-f3f4-4e9c-81dd-d83a0b5c6075
5. Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalı: https://courts.gov.az/8f895e0a-dea1-42ce-9c0f-a23f1ea74343
6. Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalı: https://courts.gov.az/8586d719-e4f8-448b-8902-c29860e7dbf2
7. Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalı: https://courts.gov.az/1249ddba-eae3-4604-810d-0d3d16291e34
8. İndiyə qədər verilmiş amnistiyalar / https://modern.az/az/olke/550598/indiye-qeder-qebul-olunan-aministiya-aktlari-ve-ehate-daireleri/

9. German Criminal Code (Strafgesetzbuch – StGB) / https://www.gesetze-im-internet.de/englisch_stgb/englisch_stgb.pdf
10. PENAL CODE / https://www.equalrightstrust.org/ertdocumentbank/french_penal_code_33.pdf

**Рамазанов Зафар Акиф оглу,**
докторант Центра судебной экспертизы Министерства
юстиции Азербайджанской Республики

## ВОПРОСЫ НАЗНАЧЕНИЯ ОКОНЧАТЕЛЬНОГО НАКАЗАНИЯ ПО СОВОКУПНОСТИ ПРЕСТУПЛЕНИЙ В ОТНОШЕНИИ ЛИЦА, К КОТОРОМУ ПРИМЕНЁН АКТ АМНИСТИИ

### РЕЗЮМЕ

Уголовное законодательство наряду с регламентацией вопросов назначения наказания предусматривает также основания и порядок освобождения от наказания либо освобождения лица от дальнейшего отбывания наказания, назначенного вступившим в законную силу приговором суда, до полного его отбытия. На современном этапе развития уголовной политики особое значение придаётся реализации принципа гуманизма как при назначении наказания, так и при его исполнении. В этой связи поощряется применение таких средств исправления лиц, совершивших преступления, которые основаны на сочетании предупредительного воздействия и прощения. Одной из форм реализации принципа гуманизма является амнистия. Вместе с тем судебная практика свидетельствует о наличии определённых трудностей при назначении окончательного наказания по совокупности преступлений в отношении лиц, к которым применён акт амнистии. В настоящей статье исследуются указанные проблемы и обосновывается вывод о том, что часть наказания, от которой лицо освобождено в результате применения акта амнистии либо которая была сокращена вследствие его применения, не может ни присоединяться к окончательному наказанию, назначаемому по правилам совокупности преступлений, ни впоследствии вычитаться из него.

**Ramazanov Zafar Akif,**
Doctoral Student, Forensic Science Center of the
Ministry of Justice, Republic of Azerbaijan

## ISSUES OF IMPOSING THE FINAL SENTENCE FOR MULTIPLE OFFENCES IN RESPECT OF A PERSON SUBJECT TO AN AMNESTY ACT

### SUMMARY

Criminal legislation, alongside regulating the imposition of punishment, also provides for the grounds and procedures for exemption from punishment or release from serving the remainder of a sentence imposed by a final court judgment before it has been fully served. At the present stage of criminal policy, particular importance is attached to the implementation of the principle of humanity both in sentencing and in the execution of criminal penalties. In this regard, the use of measures aimed at the rehabilitation of offenders through a combination of deterrence and clemency is encouraged.

One of the legal mechanisms reflecting the principle of humanity is amnesty. However, judicial practice demonstrates that certain difficulties arise when determining the final sentence for multiple offences in respect of persons to whom an amnesty act has been applied. This article examines these issues and substantiates the conclusion that the portion of a sentence from which a person has been released, or by which the sentence has been reduced as a result of the application of an amnesty act, may neither be added to the final sentence imposed under the rules governing multiple offences nor subsequently deducted from that final sentence.

**Redaksiyaya daxilolma tarixi: 21.06.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 21.07.2026**
**Çapa qəbul olunma tarixi: 21.07.2026**